

**Nizami CƏFƏROV**

## OYANMIŞ RUHUN ÖZÜNÜDƏRKİ – ƏSƏD CAHANGİR - 55

Müstəqillik dövrü ədəbiyyatımızın görkəmli simalarlından biri, bu günlərdə 55 yaşını qeyd edən Əsəd Cahangiri otuz-otuz beş il əvvəl universitetin filologiya fakültəsindən tanıyıram. Onda mən özüm də hələ gənc idim, universitetdə müəllimlik elədiyim bir neçə il idi. Elmi konfranslar, klassiklərin yubileyləri, şair-yazıçılarla görüşlərdə fəal iştirak edən Əsəd istər təhsildə, istərsə də ictimai işlərdə tələbələr arasında xüsusi nəzərə çarpırdı. Savadı, çalışqanlığı, hətta görkəmiylə də çoxluqdan seçilən bu gənc sözün həqiqi mənasında fakültənin gözüydü. Onun M.F.Axundov və M.Müşfiqin yubileyləri, Qabil, T.Bayram, N.Kəsəmənli və digər şairlərlə görüşlərdə çıxışları, xüsusən də, Nizaminin 850 illiyi münasibətilə universitetin böyük akt zalında nümayiş etdirilən və böyük maraq doğuran tamaşası hələ də yadımdadır. Bu çalışqanlığını, elmi potensialını nəzərə alıb, onu Fakültə Elmi Şurasına üzv seçmişdik. Axırıncı kurslarda Elmi

Şuranın qərarı ilə ona Nizami Gəncəvi təqaüdü də verildi. Bu o demək idi ki, Əsəd həmin dövrdə fakültənin ən nüfuzlu tələbəsiydi.
…Yadımdadır ki, bir dəfə onların kursunda intibah estetikasından mühazirə oxuyurdum. İntibah şairinin gözəllik anlayışına örnək kimi Vaqifin, –
***Oturuşu Şirin, duruşu Leyli,***
***Qəmzəsi sitəmkar, yarı gileyli.***
– misralarını misal çəkdim və dedim ki, şairin Leylinin məhz duruşu, Şirinin isə oturuşundan danışması təsadüfi deyil, çünki intibah estetikasına görə qadının oturuşu, qızın duruşu daha gözəl sayılırdı. Əsəd sual verdi ki, müəllim, bəs, intibah rəssamı Rafaelin "Siqstin madonnası" tablosunda Məryəm ana niyə ayaqüstə rəsm olunub? Sualı cavablandırmaq pedaqoji baxımdan uyğun gəlməyən bəzi məsələlərə aydınlıq gətirilməsini istəyirdi. Odur ki, Əsədə o vaxtlar çalışdığım "Ədəbiyyat və incəsənət" qəzetinə gəlməsini tapşırıb, mühazirəyə davam elədim…
Bir neçə gün sonra o gəldi və söhbətimizin davamını qəzetdə elədik. Xatırlatdım ki, İsa Məryəmin qabırğasının altından doğulub. Odur ki, ana olmasına baxmayaraq, dini ehkama görə, o, bakirə idi. Buna görə, Rafael İsanı qucağına almış Məryəmin buludlar üstündəki duruşunu təsvir edib. Yəni Rafaellə Vaqif arasında məsələyə münasibətdə ziddiyyət yoxdur və onlar hər ikisi intibah estetikasının daşıyıcısıdır.
Bu faktı xatırlatmaqdan məqsədim odur ki, Əsəd daimi axtarışda olan, qarşılaşdığı suallara cavab axtaran bir gənciydi və onu müasir ədəbiyyatımızın sayılıb-seçilən isimlərindən birinə çevirən parlaq istedadıyla yanaşı, həm də bitib-tükənmək bilməyən suallara cavab axtarışlarıdır. Gənc tələbənin o vaxtkı sualları illər, bəlkə də onillərlə

sürəcək əzablı özünüdərk prosesinin hələ, sadəcə, başlanğıcından xəbər verirdi.
Əsədi "Ədəbiyyat və incəsənət" qəzetinə növbəti dəfə gətirən də bu axtarışlar oldu. O, mənim "Yatmışdım, üstümə gəldi ərənlər" adlı məqaləmi əldə eləmək istəyirdi. Bir neçə il əvvəl dərc olunmuş, poeziyamızda sufi-mistik düşüncənin inkişaf tarixinə ümumiləşdirici baxışdan ibarət məqaləni Əsədin hələ də unutmaması maraqlı idi. Üstündən illər keçəcək, özünün bir çox məqalə və müsahibələrində Əsəd o məqaləni də, bu misraları da dönə-dönə xatırladacaqdı:

***Yatmışdım, üstümə gəldi ərənlər,***
***Qafil, nə yatmısan, oyan, dedilər!***



Əminəm ki, "Yatmışdım, üstümə gəldi ərənlər"i Əsəd indi də unutmayıb və heç vaxt unutmayacaq. Çünki onun bütün ədəbi-bədii fəaliyyətinin əsasında oyanmış ruhun özünü, dünyanı və Tanrını dərk

etmək istəyi durur və o, müstəqillik dövrü ədəbi-bədii düşüncəsində oyanışın, intibahın ən səciyyəvi nümayəndələrindən biridir.
Əsəd öz düşüncəsinin tipinə görə konservator deyil, amma bəzi yaşıdları kimi bayağı yenilikçilik, dayaz inkarçılıqdan da uzaqdır. Qədim və yeni onun düşüncəsində birləşir və ona səciyyəvi intibah adamı xüsusiyyəti verir. Təsadüfi deyil ki, onun istənilən bir yazısı – istər poema, istər esse, istərsə də məqalə olsun – əski, antik çağlardan bugünə qədərki əsas məqamları özündə ehtiva edir.
İş elə gətirdi ki, Əsədin mətbuatda ilk çıxışı da mənim yaradıcılığımla bağlı oldu. O, 1991-ci ildə “Füzulidən Vaqifə qədər” adlı kitabım haqqında “Dəyərli tədqiqat əsəri” adlı bir resenziya yazdı və “Dədəm Qorqud” qəzetində dərc etdirdi. Yadımdadır ki, soyuq, qarlı-çovğunlu bir qış günü, dekanlığın qarşısında Əsəd qəzeti mənə verib, – “Müəllim, Sizin kitabınız haqda yazmışam, imkan eləsəz, baxarsız”, – dedi. Bir neçə gün sonra təkrar rastlaşanda, – “Sağ ol, mərifətli yazı yazmısan” dedim. Onda Əsəd hələ universitetin sonuncu kursunda oxuyurdu. “Füzulidən Vaqifə qədər” isə yeni işıq üzü görmüş və müzakirələrə səbəb olmuşdu. Akademiyanın Ədəbiyyat İnstitutunun gənc alimləri kitabın müzakirəsini keçirmiş, müzakirə materialları “Ulduz” jurnalında dərc olunmuşdu. Müzakirənin əksər iştirakçıları kitabda irəli sürülən fikirlərə, xüsusən də, milli intibah konsepsiyama, Vaqifi intibah şairi hesab etməyimə etiraz edirdilər. Gözləmədiyim, özü də güclü bir müqavimətlə qarşılaşmışdım. Öz məqaləsində bu barədə heç nə yazmasa da, görünür, Əsəd də müzakirə materiallarını oxumuş və müəllimini hücumlardan qorumaq qərarına gəlmişdi. Gənc tələbənin ilk qələm cəhdi olmasına baxmayaraq, kifayət qədər aydın məntiq və ciddi elmi üslubda yazılmış resenziyanın alt qatında duran əsas müəllif qayəsi bundan ibarət idi.

Onun bir qədər sonra "Ədəbiyyat və incəsənət" qəzetində dərc olunan, milli ədəbiyyat tariximizə quş uçuşundan baxdığı "Bir əvvəl var, bir axır var deyirlər…" essesi "Mənə ədəbiyyatdan dərs deyən bütün müəllimlərimə" epiqrafı ilə dərc olunmuşdu. Sonralar gördüm ki, öz müəllimlərinə hörmət, ümumən böyüyə, eləcə də sözün böyüklərinə ehtiram, sadəcə, Nizami Cəfərov yox, Nizamilərə, Füzulilərə sayqı onun davranış etikası və yazı mədəniyyətinin epiqrafıdır. O, sözün həqiqi mənasında, ziyalıdır.

Ədəbiyyat təkcə söz meydanı deyil, həm də şöhrət meydanıdır və bu hiss bəzən tələbəni müəllimə, dostu dosta, gənci qocaya, ümumən insanı insana qarşı qoya bilər. Xüsusən də, jurnalistlərin reytinq xatirinə hamını bir-birinə düşmən etməyə çalışdıqları indiki dövrdə. Ə.Cahangir isə son otuz ilin təkcə ən məhsuldar yox, həm də polemikaya meyilli tənqidçilərindən biridir. Amma bu illər ərzində onun nəinki özündən böyüklərə, hətta gənclərə qarşı da etik əndazəni aşan yazısını, sözünü görmədim. Ən kəskin polemikalarda belə o, hamının fikrinə hörmətlə yanaşmaq, eyni zamanda öz fikrini soyuqqanlılıqla, ağılla, məntiqlə ifadə etmək kimi bir mövqedə durur və bu, o qədər də asan məsələ olmayıb, insandan həm savad, intellekt, həm də ziyalı etikası, mənəviyyat tələb edir. Sadaladığım bu cəhətlərin hər ikisi Ə.Cahangirdə var və bunları bir neçə il öncə onun moderatorluğu ilə hazırlanan, ədəbiyyatın poeziya, nəsr, dramaturgiya, ədəbi-tənqid və digər sahələrini özündə ehtiva edən, "Azərbaycan" jurnalında işıq üzü görən dəyirmi masa materiallarında bütün konturları ilə görmək olur. Belə dəyirmi masalardan birinə, Anarın "Göz muncuğu" povestinə həsr olunan müzakirəyə mən də dəvət olunmuşdum və keçmiş tələbəmin sadaladığım bu keyfiyyətləri nəinki qoruyub saxladığını, hətta bir az da cilaladığını görmək mənə xoş idi. Yeri gəlmişkən, son vaxtlar, nədənsə, belə dəyirmi masa

materiallarının jurnalda dərcini görmürəm və bunu növbəti layihələrin hazırlanması üçün zəruri fasilə hesab edirəm.
Yenilikçi ruh, aydın, son dərəcə cilalı üslub, sadəliklə dərinliyin, elmiliklə bədiiliyin, analizlə sintezin vəhdəti, fəlsəfi ümumiləşdirmələrə güclü meyil! Ə.Cahangirin məzmunca zəngin, formaca çoxcəhətli yaradıcılığının əsas cəhətləri bunlardır. Yenilik demişkən, son iyirmi ildə geniş rezonans doğuran postmodernizm anlayışının ədəbiyyatımıza gəlməsində Ə.Cahangirin çoxsaylı və ardıcıl yazılarının həlledici rolu olub. Bu o vaxtlar idi ki, ədəbi mühitdə bir durğunluq yaranmışdı. Bədii sözümüzü, ümumən ictimai düşüncəni hərəkətə gətirmək üçün yeni anlayışa ehtiyac duyulurdu. Bu anlayış postmodernizm, onun ideya ilhamçısı isə zamanın tələbini həssaslıqla duyan Ə.Cahangir oldu.
Ə.Cahangir postmodernizmdən yazanda Avropa ədəbi-bədii düşüncəsində bu meyil öz ömrünü artıq başa vurmaq üzrəydi. Lakin biz 70 illik qapalı Sovetlər Birliyi mədəniyyətindən çıxmışdıq. Ola bilsin ki, İsa Hüseynov, Çingiz Hüseynov kimi yazıçılarımız postmodernizmin bu və ya digər cəhətini ədəbiyyata gətirmişdilər, amma istənilən halda bunlar ədəbi-tənqidin registrasiyasından keçməmiş, özünün nəzəri-analitik təsdiqini tapmamışdı. O vaxt yalnız bir metodun – sosialist realizminin tələbləri ehkam sayılırdı və bütün yerdə qalanlar qanundankənar, mürtəd elan olunmuşdu. Ona görə postmodernizm də, onun gətirdiyi ab-hava da bizim üçün yeni idi, ədəbiyyat isə hər şeydən öncə, fasiləsiz yeniləşmə deməkdir. Ə.Cahangirin bir neçə il ərzində postmodernizmlə bağlı ardıcıl yazıları bu mənada ədəbi-bədii düşüncəyə hərarətli yenilik həyəcanları gətirir, onu canlandırırdı. Mən bunu deyəndə, hər şeydən öncə, onun “Xalq cəbhəsi”, “Vətəndaş həmrəyliyi”, “Yeni Azərbaycan” qəzetlərində işıq üzü görən “Yeni əsrin ibtidası” silsilə

məqalələrini nəzərdə tuturam. Bu yazılarda yeni ədəbi-bədii fikrimizin, doğrudan da, nəzəri ibtidası qoyulur, ədəbi prosesin təxminən 10-15 illik prioritet istiqamətlərinin fəlsəfi-estetik əsasları müəyyənləşirdi.
Maraqlı idi ki, təkcə Murad Köhnəqala, Həmid Herisçi, İlqar Fəhmi kimi cavanlar deyil, adlı-sanlı yazarlar da yeni anlayışı dəstəklədilər. Elçinin "Şekspir", "Teleskop" kimi pyesləri ilə milli teatrımızda postmodern düşüncənin əsası qoyuldu. Kamal Abdullanın "Yarımçıq əlyazma"sı ilə milli nəsrimizdə postmodern romanın ən səciyyəvi nümunəsi yarandı. Tezliklə "Azərbaycan ədəbiyyatında postmodernizm" mövzusunda dissertasiyalar müdafiə edildi, Salidə Şərifova, Nərmin Kamal və digərlərinin bu mövzuda kitabları işıq üzü gördü, yəni anlayış populyarlaşdı, rəsmən qəbullandı, vətəndaşlıq statusu hüququ qazandı, ədəbi-bədii prosesin lokomotivinə çevrildi. Bu işin nəzəri-ideoloji yöndən əsas simalarından biri, yəqin ki, birincisi, Ə.Cahangir idi. Özü də təkcə məqalələri ilə deyil, İlya İlin, Daniil Andreyev, İrina Adelgeym, Aleksandr Dugin, İrina Nikitina və digər bu kimi alimlərin postmodernizm haqqında yazdığı məqalə və kitablardan elədiyi filoloji tərcümələrlə. Onun timsalında ədəbi tənqid bir müddətdir unutduğu missiyasına qayıdır – bədii fikin yoluna nəzəri işıq salır, onun yeni düşüncə üfüqlərini müəyyənləşdirirdi.
Dialektik düşüncə, ehkamçılıqdan uzaqlıq, dünyaya və onun bədii inikası olan sözə daimi dəyişmə – inkişaf və ya tənəzzüldə olan canlı proses kimi baxmaq! Ə.Cahangirin düşüncəsinə məxsus daha bir cəhət budur. Bu onun yazılarına qabarıq nəzərə çarpan tarixilik keyfiyyəti verir. Ə.Cahangirin yazıları ağır-ağır axıb gedən, ədəbiyyatın ayrı-ayrı mərhələlərini bir bütöv halında birləşdirən, öz axarına salıb aparan nəhri xatırladır və bununla da, "tənqid hərəkət

edən estetikadır" fikrini əyani olaraq təsdiq edir. Bunu onun yuxarıda sözügedən "Bir əvvəl var, bir axır var deyirlər" essesində də, sonralar yazdığı "Söz", "Səs" "Dəmirbaşlar", "Aprel tezisləri" kimi ən yaxşı esselərində də aydın görürük. Əsəd təkcə bu esseləri yox, bütün yazılarında ilk essesinın sərlövhəsinə sadiqdir – onu sözün başlanğıcı və sonu, yolun əvvəli və axırı maraqlandırır. Bütün ədəbiyyatşünaslıq mövzu və problematikası ilə yanaşı, onun yazılarının alt yapısında bir ən ümumi fəlsəfi suala cavab cəhdi durur: – Hardan gəlib, hara gedirik?
Bəli, ədəbi-bədii faktın mahiyyətini aşkarlamağa yönələn Ə.Cahangir tənqidi açıq fəlsəfiliyə meyillidir. O, ədəbi-estetik anlayışlarla yanaşı, həm də ruh, şüur, materiya, zaman, məkan və sair bu kimi əsas fəlsəfi kateqoriyalarla düşünür. Mənə həmişə elə gəlir ki, onun ədəbi-tənqidçi olmasıyla, Azərbaycan fəlsəfi və ictimai fikri özünün dünya çapına gedib çıxa biləcək bir filosofunu itirib.
Yeri gəlmişkən, burda bir haşiyə çıxacam. İkinci, ya üçüncü kursda oxuyanda, dərs ilinin lap başlanğıcında Əsəd bir gün mənə yaxınlaşıb dedi ki, Fərman müəllim Fəlsəfə fakültəsinə keçməyimi istəyir, fikirləşmək üçün bir neçə gün vaxt almışam, məsləhətiniz nədir, ona nə cavab verim? Söhbət görkəmli filosof, "Müasir Qərb fəlsəfəsi", "İnsan və dünya", "Klassik psixoanalizin əsasları", "İdrak nəzəriyyəsi və linqvistik analiz" və digər çoxsaylı kitabların müəllifi, universitetin fəlsəfə kafedrasının müəllimi, fəlsəfə elmləri doktoru Fərman İsmayılovdan gedirdi. Görünür, o, mühazirələrin gedişində Əsədin fəlsəfi istedadını görmüş, ona ixtisasını dəyişməyi təklif eləmiş, bu taleyüklü addımı atmaqda tərəddüd keçirən Əsəd isə bir sıra güvəndiyi müəllimləri ilə yanaşı, məsləhət üçün mənə də üz tutmuşdu. Mən, təbii ki, bu yerdəyişməyə razı olmadım və – "Bəyəm, bizim filoloqa ehtiyacımz yoxdur, fəlsəfəyə niyə keçirsən

ki? – dedim. Sonralar öyrəndim ki, başqa müəllimlər də Əsədə eyni məsləhəti veriblər və bununla da, dilemma filologiyanın xeyrinə həll olundu. O vaxt doğrumu, yanlışmı qərar çıxardıq, bilmirəm, amma onu bilirəm ki, bu gün 55 yaşını qeyd edən Əsəd Cahangirin görkəmli bir söz adamı kimi varlığı o günlərdə çıxarılan qərarla əhəmiyyətli dərəcədə bağlıdır.

Orijinallıq, özünəməxsusluq Əsəd Cahangirin düşüncəsinin ən qabarıq görünən tərəfidir. Onun müəllifə özünü daha sərbəst ifadə etməyə imkan verən esse janrına xüsusi marağının əsas səbəbi yəqin ki, budur. “Söz” essesində o, Füzulinin bir beytinə – “Can sözdür, əgər bilirsə insan / Sözdür ki, deyirlər özgədir can” – istinad edərək sözün ikili səciyyəsini açır, onun ilahilik keyfiyyətini itirib insanilәşməsi və yenidən ilahiliyə qayıtması zərurətindən danışır və bu ideyanın əyani örnəyi kimi Nizamidən Muğannaya qədərki minillik bədii sözümüzü Füzulinin bir beytindən keçirir. “Söz” essesi bu minillik yolda dastan, qəzəl, qoşma kimi janr əvəzlənmələri ilə yanaşı, sözün istənilən yanrı öz içinə alan daxili forma dəyişkənliyindən danışır və bunların birindən digərinə keçidin görünməyən, strukturoloji laylarını qaldırır, kəsəsi, sözün nüvəsinə gedib çıxır. Yadımdadır ki, Əsəd bu essenin əlyazmasını mənə vermişdi və ilk bir neçə abzası oxuyan kimi bilmişdim ki, “Söz” təkcə öz müəllifinin yaradcılığı deyil, ümumən ədəbi-tənqidi düşüncəmizdə strukturalizmin ən parlaq, qeyri-adi örnəklərindən biridir. Belə yazı hər müəllifin ömründə bir dəfə, uzaqbaşı bir neçə dəfə ola bilər.

O bir neçə dəfədən biri olan “Səs” essesi Azərbaycanın üç geokulturolololoji əraziyə – söz, səs və rəng məkanlarına bölünməsinə dair kəşflə yadımda qalıb. Bu bölgüdə Naxçıvan, Göyçə, Qazax və Borçalı sözün, Qarabağ səsin, Bakı və Şirvan isə rəngin payına

düşür. “Səs” bir “Qarabağnamə”dir, özü də bu mövzuda indiyədək yazılan və olsun ki, bundan sonra yazılacaq “namə”lərin ən orijinalı. Essedə Qarabağın Azərbaycan tarixi və mədəniyyətindəki yeri və rolu özünün bütün tarixi-kulturoloji konturları ilə aydın görünür. “Söz”də ədəbiyyata metafizik baxış olduğu kimi, “Səs”də də tarixə metatarixi baxış var və bunun hesabına Qarabağa da, səsə də yanaşmanın hüdudları müqayisəsiz dərəcədə genişlənir, min dəfələrlə eşitdiklərimiz, gördüklərimizi sanki ilk dəfə görür, müəlliflə birlikdə biz də öz ölkəmizi geokulturoloji rakursdan yenidən kəşf edirik.
Ə.Cahangirin esseləri məntiqi-rasional metodla intuisiyanın, ilhamla vəhyin inteqrasiyası, kəsişmə zolağında meydana çıxıb. Onun “Dəmirbaşlar” essesi ənənəvi geridönməz tərəqqi ideyasının əksinə inkişaf və tənəzzülün daimi əvəzləndiyi dairəvi düşüncə modeli əsasında yazılıb. Elmi-texniki tərəqqinin danılmaz nailiyyətlərinə baxmayaraq, bəşər tarixinə mənəvi tənəzzül kimi baxmaq! Elm, fəlsəfə, tarix, ədəbiyyat və digər sahələrdə qızılbaşlıqdan dəmirbaşlığa enişi izləyən esse müəllifinin əsas yeniliyi bu unudulmuş köhnəliyin bir daha təsdiqindədir. Amma insanlığın labüd esxatoloji faciəsindən söz açan bu essedə optimist ideya qalib gəlir – qızılbaşlığa çağırış! “525-ci qəzet”də bir neçə ay ərzində hissə-hissə dərc olunan essenin geniş rezonans doğurmasının əsas səbəbi, yəqin ki, bu müəllif qayəsi ilə bağlı idi. Ə.Cahangirin müsahibələrindən birində dediyi kimi, “ədəbiyyat hər şeyi insanın əlindən ala bilər, amma ümidi almağa onun ixtiyarı yoxdur”.
Qatı tradisionalist mövqedən yazılan “Dəmirbaşlar” Ə.Cahangirin yaradıcılığını izləmək baxımından daha bir cəhətdən əhəmiyyətli idi. Esse “mən postmodernizmə sədaqət andı içməmişəm” deyən müəllifin postmodernist düşüncədən uzaqlaşmasını göstərirdi. Bir qədər sonra qələmə aldığı “Aprel tezisləri. Postinsan haqqında esse”

isə onun ədəbi-fəlsəfi fikrimizə yeni bir anayış – postinsan anlayışı gətirmək cəhdi ilə səciyyələndi. Postmodernizm insanın özünə inamının süqutundan danışırdı. Postinsan isə insanın tamamilə başqa bir varlığa – postinsana çevrilməsindən bəhs edir. Odur ki, bu daha radikal ideya əfkari-ümumiyyə tərəfindən postmodernizm qədər asanlıqla qəbul edilə bilməzdi. Futuroloji mövzuda yazılmış “Aprel tezisləri” Ə.Cahangirin ən inqilabi məzmunlu essesidir, inqilabın baş tutması isə situasiya tələb edir. Lakin bu amil essedə irəli sürülən ideyanın perspektiv əhəmiyyətini inkar etmir. Çünki həyatımızın bütün temporitmi postinsan ideyasının yaxın gələcəkdə reallaşması imkanını hər gün daha bariz təsdiq edir.

Ə.Cahangirin indiyə qədər “Qədim türk ədəbiyyatının linqvistik poetikası”, “Ağ saç, qara saç”, “Kim yatmış, kim oyaq”, “On üçüncü gecə” kimi kitabları işıq üzü görüb və bu kitabların hər biri müəyyən ədəbiyyatşünaslıq problemlərinə aydınlıq gətirilməsiylə səciyyələnir. “Qədim türk ədəbiyyatının linqvistik poetikası” kitabının mövzusunu Əsədə mən vermişəm. Kitabda Mahmud Kaşğarlının məşhur “Divanü lüğat it-türk” əsərindəki bədii nümunələr dilçilik və ədəbiyyatşünaslığın kəsişmə zolağında araşdırılıb. Müəllif “Divan”da toplanmış şeirlərin yaranması, inkişafı, dil və üslub xüsusiyyətləri, vəzni, müasir poeziya ilə əlaqəsi kimi məsələlərə dair orijinal fikirlər deməklə yanaşı, həm də bu nümunələri müasir dilimizə uyğunlaşdırmış və kitaba əlavə etmişdir. Azərbaycan filoloji fikrində monoqrafik səviyyədə kaşğarlışünaslıq Ə.Cahangirin 2001-ci ildə “Elm” nəşriyyatında rezoqraf üsulu ilə dərc olunmuş bu kitabı ilə başlayır.

2006-cı ildə “Nurlan” nəşriyyatında çapdan çıxan, Xalq yazıçısı Anar və Günel Anarqızının nəsr yaradıcılığından bəhs edən “Ağ saç, qara saç” kitabının ideya miqyasları adından daha genişdir. Kitabın

əsasında Anarın "Ağ qoç, qara qoç" utopik və antiutopik nağıllarının milli və dünya ədəbiyyatı müstəvisində təhlili durur. Özümüzə dünyadan və dünyaya özümüzdən baxmaq Ə.Cahangir tənqidinin qabarıq nəzərə çapran keyfiyyətlərindən biridir. Lakin kitabın alt qatında o vaxt ədəbi mühitdə kəskin şəkil alan nəsillərarası qarşıdurmaya qarşı gizli bir etiraz da var. Ağ qoç, qara qoç buynuzlaşmasını, ağ saç, qara saç ehtiramı və ehtişamı ilə əvəzləmək! Kitabın müəllifinin daha dərin qatda gizlənən əsl qayəsi budur!
2013-cü ildə "Yazıçı" nəşriyyatında yayımlanan "Kim yatmış, kim oyaq" seçilmiş esselər və məqalələr kitabı təkcə öz müəllifinin yox, çağdaş Azərbaycan ədəbi-tənqidi fikrinin hadisəsi kimi meydana çıxdı. İ.Muğanna, S.Əhmədli, Anar, F.Qoca, Elçin, A.Məsud, V.İbrahimoğlu, B.Osmanov və digər söz-sənət adamlarının yaradıcılığından söz açan kitabın təkcə elə adı onun müəllifinin bir ən ümdə xüsusiyyətindən xəbər verir – çağdaşlığa bədii düşüncəmizin ən əski çağlarının gözüylə baxmaq! Kitabın adı daha bir məsələyə aydınlıq gətirir – vaxtilə tələbə Əsədin universitet auditoriyasında müəllimlərinə ünvanladığı sualları artıq durub-toxtamış ədəbi-tənqidçi Ə.Cahangir dövrün ən sayılıb-seçilən, adlı-sanlı imza sahiblərinə, ümumən insana, zamana ünvanlayır, yeni dövrün yeni suallarını müəyyən edirdi! Oyanmış ruh "kim yatmış, kim oyaq?" deyə atrıq bu dəfə başqalarını oyanışa, intibaha çağırırdı!
Xalq yazıçısı Elçinin yaradıcılığından bəhs edən "On üçüncü gecə" məqalələr kitabı da ən ümumi ruhu etibarilə qaranlıqdan işığa, gecədən gündüzə çağırış ruhu ilə köklənib. Psixoanalitik təhlillər, yazıçının pyesləri əsasında hazırlanmış tamaşalar haqqında qənaətlərin də yer aldığı kitabda başlıca yeri Elçinin tarixi mövzuda qələmə aldığı "Baş" romanı haqqında "Baş"langıc" məqaləsi,

xüsusən də məqalədə irəli sürülən “metafizik realizm” anlayışı tutur. Ə.Cahangir “Baş”ı bədii nəsrimizdə düşüncə miqyaslarının genişlənməsi, metafizik Amerikanın kəşfi baxımından mühüm bir yenilik kimi qiymətləndirir. Milli bədii nəsrimizdə ruhun ilk dəfə baş qəhrəmana çevrildiyi romanın, oyanmış ruhun ifadəçisi olan bir tənqidçi tərəfindən bu cür dəyərləndirilməsi məntiqidir.
“Baş”langıc”ın ədəbi-tənqid tariximizə onuncu illərin mühüm nəsr tədqiqatlarından biri kimi daxil olacağına şübhə yoxdur.
Ə.Cahangirin maraq dairəsinin genişliyi təəccüb doğurur: ədəbiyyat, incəsənət, din, fəlsəfə, psixologiya, tarix, ezoterika… İctimai şüurun elə bir forması yoxdur ki, Ə.Cahangir ona maraq göstərməsin. Onun yaradıcılığının mühüm bir qolunu teatr, kino, musiqi ilə bağlı araşdırmalar, bir sözlə, sənətşünaslıq yazıları tutur. Xüsusən də teatra olan marağı Ə.Cahangiri ədəbi-tənqidi fikrimizdə M.F.Axundov, M.Hüseyn, C.Cəfərov, Y.Qarayev ənənələrinin parlaq davamçısına çevirir, bütün yenilikçi cəhdləri ilə yanaşı, onun klassik tənqidçi imicini formalaşdırır. Məncə, Ə.Cahangirin həmkarları arasında klassik teatral ruhun daşıyıcısı olan ikinci belə ədəbiyyat tənqidçisi yoxdur. Ən çox razılıq doğuran isə odur ki, müxtəlif janrlarda yazılan, sayı yüz əlliyə çatan bu yazıların nə analitik səviyyəsi, nə də informativ yükü ədəbiyyatşünaslıq yazılarından zərrə qədər də geri qalmır. Əsədin üslubunda elə bir cazibə gücü var ki, onun ədəbi-tənqidi yazılarını oxuyanlar haqqında yazdığı əsərlərlə tanış olmaq, sənətşünaslıq yazılarını oxuyanlar isə haqqında bəhs etdiyi tamaşalara, filmlərə baxmağa tələsirlər.
Əlibaba Məmmədov, Habil Əliyev, Zeynəb Xanlarova, İslam Rzayev, Elmira Rəhimova, Ramiz Mirişli, Ramiz Quliyev, Mənsum İbrahimov, Ağasadıq Gəraybəyli, Barat Şəkinskaya, Leyla Bədirbəyli, Həsən Turabov, Həsən Məmmədov, Amaliya Pənahova,

Şəfiqə Məmmədova, Əminə Yusifqızı… Ə.Cahangirin haqqında yazdığı onlarca sənət adamının bunlar yalnız az bir qismidir. Onun Xalq artisti Barat Şəkinskaya ilə müsahibəsiylə tanış olanda qəribə görünür ki, ötən əsrin iyirminci illərində səhnəyə çıxan qədimi aktrisalarımızdan biri ilə 90-cı illərdə ilk yazılarını dərc etdirən gənc tənqidçinin sözü-söhbəti necə belə yaxşı tutur? Hər hansı bir teatrşünasın Vaqif İbrahimoğlunun "Lənkəran xanının vəziri" tamaşasına Əsədin "Vay, dədəm, vay" məqaləsindən daha incə yozum verəcəyinə, yaxud rejissor Bəhram Osmanovun portretini onun "Bəhramnamə"sində olduğundan daha məharətlə yaradacağına, yaxud da Gəncədə keçirilən ümumrespublika teatr festivalının (2009) gedişi və yekunlarını onun "Bir çarə var ancaq – yeniləşmək" məqaləsindən daha yaxşı ümumiləşdirəcəyinə inanmaq çətindir. İnanmıram ki, hər hansı bir iranlı kinoşünas İran kino sənətinin mahiyyətini Əsədin "Oskar"ı niyə Fərhadiyə verdilər" məqaləsindəki kimi üzə çıxara bilsin… Fəlsəfə ilə bağlı bir qədər yuxarıda dediym fikrin təkrarı kimi görünsə də, deməliyəm ki, Əsədin ədəbiyyat tənqidçi olmasıyla Azərbaycan incəsənəti özünün çox ciddi bir sənətşünasını itirib.

Bəs, Ə.Cahangirin çoxcəhətli yaradıcılığının sirri, səbəbi nədədir? Bu sualın birbaşa cavabı onun poeziyasındadır. Poeziya insanlıq tarixində hər şeyin hələ bir şey olduğu, hələ müxtəlif yaradıcılıq sahələri arasında differensiasiyanın etmədiyi başlanğıc dövrün məhsuludur. Ona görə əsl poetik ruha sahib olanlar üçün janr məhdudiyyəti olmur. Ədəbi yaşıdlarından E.Z. Qaraxanlının vaxtilə Əsədə həsr etdiyi məqalədə dediyi kimi, "istedadın janrı yoxdur". Amma janr sərhədlərini aşmaq bəzən azad ruhun hər şeyi qapsamaq imkanı və ehtirasının ifadəsi olduğu kimi, bəzən heç nəyi bacarmamaqdan da xəbər verə bilər. Xoşdur ki, bu məsələdə

Ə.Cahangir birincilərdəndir. Onun poetik stixiyası insanlığın poeziya mərhələsi ilə daxili-ruhi əlaqəsindən xəbər verir. Çünki bu dövrə məhz həmin stixiya ilə getmək olar. "Nə olsun, bu stixiya istənilən bir şairdə var deyənlər" ola bilər! Lakin Ə.Cahangir istənilən bir şairdən bir mühüm cəhətdən fərqlənir – onda çağdaşlıq üçün daha səciyyəvi olan məntiqi-rasional idrak, intellekt də var. Və bu iki əks qütbün birləşməsi Ə.Cahangirin düşüncəsinə əvvəllə axırın birləşməsi səciyyəsi verib, onun istər özü, istərsə də sözünün özünəməxsusluğu, hətta müstəsnalığını şərtləndirir.

Maraqlıdır ki, Ə.Cahangir şeirdən daha çox, poemalar müəllifi kimi tanınır. Bu onun qədim türk ədəbiyyatından gələn epos təfəkkür tipinin daşıyıcısı olmasıyla bağlıdır. Onun "O Adam", "Namaz", "Xarıgülnar" poemaları müstəqillik dövrü poeziyamızda bu janrın ən parlaq nümunələrindəndir. Çünki Ə.Cahangir nədən yazır yazsın, hansı janra üz tutur tutsun, Müşfiqin "yaratdığın şeyi sevərək yarat, hamıdan yüksək ol, hamıdan baş ol" prinsipinə əməl etməyə çalışır. Bu poemalardan ilk ikisini Ə.Cahangir qırx yaşında yazıb və bu heç də təsadüfi deyil. Bu, Füzulinin "Leyli və Məcnun", Şekspirin "Hamlet" yaşıdır. Yaradıcılıqla məşğul olan adam bu müdriklik yaşında özünü maksimum ifadə etdiyi ən yaxşı əsərlərini və ya əsərini yazır. Bu baxımdan hər iki poema, xüsusən də, "Namaz" Ə.Cahangirin maksimum özünüifadəyə nail olduğu poemadır. Birincisi sərbəst, ikincisi isə ritmik sərbəstdə yazılan, hər ikisi mistik məzmuna malik bu poemalar klassik sufi poeziyasındakı Allah və həqiqət axtarıcılığının modern örnəkləridir. Sadəcə, birinci poemanın ifadə etdiyi zaman intervalı son iki min il, ikincininki isə əzəldən əbədə qədərki sonsuzluqdur. Füzulinin "Leyli və Məcnun"undan sonra bizdə bu məzmunda poemalar yazılmayıb. Bu poemalar ən ümumi şəkildə götürəndə Füzuli ruhunun poeziyamızdakı yeni

dirçəlişi, yeni oyanışıdır. Və onları məhz oyanmış ruhun bədii-fəlsəfi ifadəçisi olan Ə.Cahangirin yazmasından məntiqi heç nə ola bilməz. Bu günlərdə Şuşada keçirilən Xarıbülbül musiqi festivalına həsr olunan, Qarabağda qazandığımız cahanşümul qələbədən doğan şükranlıq hissləri ilə aşılanmış "Xarıgülnar" poemasında isə günümüzdə baş verənlər ümumtürk tarixi ilə analoji müstəvidə dərk və təsvir olunur. Bu analogiyada Cıdır düzü Ötükənə, festival şülənə, İlahm Əliyev Bilgə kağana, Mehriban Əliyeva İlbilgə xatuna, Anar Dədə Qorquda müqabil gəlir. Poema təkcə ən ümumi ruhu deyil, həm də Dədə Qorqud şeiri üslubuyla diqqəti çəkir. Poemadan Dədə Qorqudun ünlü dua-alqışlarının səsi gəlir:

***Tanrım, sənə şükr olsun,***
***Şəhidlərimin adı adın kimi zikr olsun!***
***Şəhid bacıları bacım, anaları anam olsun!***
***İlbilgə xatun Mehriban,***
***Bilgə xaqanımız İlham olsun!***
***Qazilərimizə ehtiram,***
***Obamız obası, davamız davası olan***
***dost ellərə salam olsun!***

Ə.Cahangirin bütün poemaları impulsiv enerjidən yaranıb və "Xarıgülnar" da bu yöndən istisna deyil. Müəllifə bu poemanı yazmağa impuls verən konkret bir hadisə – əslən şuşalı olan Xalq artisti Firəngiz Mütəllimovanın festival günü alnını Şuşa torpağına qoyması olub. Amma bu fakt poemanın yaranmasında sadəcə başlanğıc impuls, dəryaya gedən yolda bir damla rolu oynayıb. "O Adam" və "Namaz" poemalarında olduğu kimi, "Xarıgülnar"da da müəllif damlada dəryanı, zərrədə küllü göstərmək kimi sufi yoluyla gedir. Sadəcə, müəllif düşüncəsinin damlaları "O Adam"da

ümumbəşəri, “Namaz”da ümummüsəlman, “Xarıgülnar”da isə ümumtürk dəryasına qovuşur.
Ə.Cahangirin yaradıcılığının xüsusi bir qolu onun ədəbi gəncliyin ən istedadlı nümayəndələrinin yaradıcılığını üzə çıxarmaq və cəmiyyətə təqdim etməkdən ibarətdir. O, AYB-nin təklifi ilə gənclərin yaradıcılığından ibarət “Körpü” (2004), Azərbaycan Tərcümə Mərkəzinin təklifi ilə “Yeni səs” (2016) və Heydər Əliyev Fondunun təklifi ilə “Gənc yazarların vətənpərvərlik mövzusunda şeirlər toplusu” (2017) antologiyalarının redaktoru və tərtibatçısı olmaqla yanaşı, neçə-neçə gəncin kitabına ön söz yazıb, onlara uğurlu yol diləyib.
Ə.Cahangirin istər ədəbi-tənqidi, istər kulturoloji, istərsə də poetik yaradıcılığının diqqəti çəkən daha bir cəhəti onun dərin səmimiyyətlə aşılanmış yüksək vətəndaşlıq məzmunudur. O, hər cür fərdiyyətçilikdən uzaqdır. Mən bunun əsas səbəbini onda görürəm ki, 90-ıncıların əksər nümayəndələrindən fərqli olaraq, V.Səmədoğlu, R.Rövşən və V.B.Odərin ifrat fərdiyyətçiliklə səciyyələnən poeziyasından Əsəd yan keçə bilib. Məhz bu cəhət onun poeziyasına yaşıdlarının demək olar ki, heç birisində olmayan daha bir keyfiyyət qazandırır – optimizm!
Daim real həyatla nəfəs alan, təbii, canlı dillə yaranan Ə.Cahangir yaradıcılığı kabinet ədəbiyyatı deyil. “Hər bir böyük ədəbiyyatın son məqsədi müdhiş bir Tanrı inancına can atmaqdır” deyən Ə.Cahangirin düşüncəsində haqq və xalq anlayışları, təkcə səslənməsinə görə deyil, məzmununa görə də həmqafiyədir. Metafizik, kosmik, sosial-siyasi, fərdi-psixoloji qatlar onun düşüncəsində iç-içə çevrələr kimidir. Və bunların cəmindən fakta, hadisəyə bütöv Ə.Cahangir baxışı yaranır. Bu çevrələr arasında ümummilli taleyüklü problemlərlə bağlı sosial-siyasi qat xüsusi yer

tutur. Ustad Ələsgərin “Arsız aşıq elsiz niyə yaşadı?” sualı Ə.Cahangir üçün həmişə qüvvədədir. Onun bu baxımdan bir mövqeyi var – Azərbaycan dövlətçiliyi; və bir qayəsi var – milli-mənəvi dəyərlərin qorunması. Yazıçının ümummilli öndər Heydər Əliyevin anım gününə yazdığı “Möhtəşəm məktub”, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya həsr etdiyi “Çiyninə Pikassonun göyərçinləri qonub”, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın poetik yaradıcılığından bəhs edən “Bütün yollar eşqdən keçir” kimi esse və məqalələri məhz bu mövqenin, bu qayənin ifadəsidir… Ə.Cahangirin qondarma erməni soyqırımını ifşa edən, əsl tarixi həqiqətə yüzlərlə danılmaz arqumentlərlə aydınlıq gətirən “Erməni soyqırımı: mif, yoxsa gerçəklik” kitabını Milli Məclisin deputatı Adil Əliyevin təşəbbüsü ilə rus dilindən dilimizə çevirməsi də eyni əqidə, eyni amala xidmət edən vətəndaşlıq işidir.

Azərbaycan ədəbiyyatının dünyada, türk xalqları məkanında, keçmiş Sovetlər Birliyi ölkələrində, dünya xalqları, türk xalqları və keçmiş Sovetlər Birliyi xalqları ədəbiyyatlarının Azərbaycanda təbliğində də Ə.Cahangirin xüsusi rolu var. Onun Moskvada çıxan “Drujba narodov” jurnalının Azərbaycan ədəbiyyatına həsr olunan xüsusi sayında (2006, 3) milli poeziya və nəsrimizə dair “Qlobalizm, yoxsa millilik: dilemmadan çıxış yolu nədədir?” məqaləsi Rusiya ədəbi dairələri tərəfindən maraqla qarşılanmış, müasir ədəbi proseslə bağlı bir sıra icmalları gürcü, özbək, türk dillərinə çevrilərək müvafiq ölkələrdə yayımlanmışdır. Fransız şairi Artur Rembodan, tatar şairi Robert Minnullindən, çağdaş Amerika poeziyasından elədiyi yüksək səviyyəli bədii çevirmələri Ə.Cahangirin beynəlxlaq ədəbi əlaqələr sahəsindəki əməyindən xəbər verir. Təsadüfi deyil ki, Azərbaycan Dövlət Tərcümə Mərkəzinin sədri, Xalq yazıçısı Afaq Məsud

Ə.Cahangirin bədii tərcümə sahəsindəki ustalığını xüsusi qiymətləndirərək, bu tərcümələrdən tərcümə işinin tədrisi ilə bağlı təhsil müəssisələrində əyani vəsait kimi istifadə olunmasından danışmışdır.
Ə.Cahangirin ədəbi-bədii fəaliyyəti dövlətimiz və Azərbaycan Yazıçılar Birliyi, eləcə də bir sıra ictimai təşkilatlar tərəfindən yüksək qiymətləndirilib. Onun haqqında Xalq yazıçılarından İsa Muğanna, Sabir Əhmədli, Anar, Elçin, Afaq Məsud, yazıçılardan Rəşad Məcid, tənqidçi və dilçilərimizdən Yaşar Qarayev, Tofiq Hacıyev, Akif Hüseynov, Vaqif Yusifli, Bəsti Əlibəyli və digərləri ən yüksək fikirlər demiş, onu müasir ədəbiyyatımızın görkəmli nümayəndəsi, müstəqillik dövrünün yetirdiyi hərtərəfli istedada malik söz adamı kimi dəyərləndirmişlər. Ə.Cahangir "Səs" essesinə görə AYB-nin təsis etdiyi Aydın Məmmədov adına "İlin ən yaxşı tənqidçisi" mükafatına, "Namaz" poemasına görə Konya Şəhər Bələdiyyə İdarəsi ilə AYB-nin birgə təsis etdiyi Beynəlxalq poeziya mükafatına, "Kim yatmış, kim oyaq" kitabına görə AYB-nin Yaşar Qarayev, Mədəniyyət Nazirliyinin "Qızıl kəlmə" mükafatlarına, Azərbaycan ədəbiyyatı qarşısındakı xidmətlərinə görə "Vektor" Beynəlxalq Elm Mərkəzinin Şahmar Əkbərzadə adına mükafatına, ümummilli öndər Heydər Əliyevin və Respublika Prezidenti İlham Əliyevin sərəncamları ilə iki dəfə Prezident təqaüdünə layiq görülmüşdür…
…Yenə otuz beş il öncəyə, Əsədin tələbəlik illərinə qayıdıram. Yadımdadır ki, Raifə Həsənova, Xalid Əlimirzəyev, Əlövsət Abdullayev, Nərgiz Paşayeva, Yəhya Seyidov, Ziynət Əlizadə, Təhsin Mütəllimov, Tofiq Hacıyev, İsmayıl Məmmədov, İsmayıl Əhmədov, Azad Nəbiyev, Şamil Salmanov, Abdulla Abbasov, Musa Adilov və digərlərindən ibarət müəllim-professor heyəti onun filoloq

gələcəyinə böyük ümidlərlə baxırdılar. Bu gün Ə.Cahangirin verdiyi 55 illik ömür hesabatından görünür ki, o, müəllimlərinin ümidlərini doğrulda bilib.




Əsədin müəllimləri arasında mən də varam. Və keçmiş tələbəm, bugünün sayılıb-seçilən, ən yüksək dəyərə, qiymətə layiq söz adamı Əsəd Cahangir haqqında bu yubiley məqaləsinin son nöqtəsini böyük bir daxili əminlik hissiylə qoyur, ona ən yüksək nemət olan cansağlığı, yeni-yeni yaradıcılq uğurları arzu edirəm…

**İlkin mənbə:** edebiyyatqazeti.az